## ÖN SÖZ

Stress amillərin hüceyrə sisteminə təsir mexanizminin araşdırılması çoxdandır ki, tədqiqatçıların diqqətini cəlb etməkdədir. İlk dəfə təbabət elmində istifadə olunan stress (gərginlik) anlayışı hazırda müxtəlif elm sahələrində geniş tədqiqat sahəsinə çevrilmişdir. Stress amil kimi mühitin duzluluğu, yüksək və alçaq temperaturu, ağır metal ionları, ultrabənövşəyi və yüksək intensivlikli işıq şüaları, detergentlər və s. göstərmək olar. Stress amillərin tədqiqi psixoloq və sosioloqların da tədqiqat obyektinə çevrilmişdir. Hazırda sadaladığımız amillərin hüceyrə sisteminə, bütövlükdə orqanizmə təsirinə aid xeyli məlumatlar toplanmışdır. Spontan və induksiya olunmuş lüminessensiya əsasında canlı sistemdə stress amillərin təsirinə qarşı cavab reaksiyasının öyrənilməsi maraq doğurur. Adı çəkilən metodların köməyi ilə canlı sistemin tamlığını pozmadan onda baş verən fizioloji- biokimyəvi-biofiziki dəyişikliklər haqqında məlumat əldə etmək olar.

Universitetlərin bioloq bakalavriatları və magistrantları üçün dərs vəsaiti kimi nəzərdə tutululan bu kitabda spontan və induksiya olunmuş luminessensiyanın bir hadisə və eyni zamanda bir tədqiqat üsu-

lu kimi inkişaf tarixi və həmin hadisələrə əsaslanan təcrübələrin nəticələri öz əksini tapmışdır.

Müəlliflər vəsaitin əlyazmasına etdikləri irad və təkliflərə görə kitabın redaktoru dos. N.K.Köçərliyə, prof. İ.N.Əliyevaya, prof. Ə.N.Fərəcova, b.e.d. E.S.Cəfərova minnətdarlıqlarını bildirirlər. Müəlliflər kafedranın dosentləri N.K.Köçərliyə, Z.M.Mahmudova və S.T.Hümmətovaya vəsaitdə əks olunan bir sıra nəticələrin alınmasındakı fəaliyyətlərinə görə razılıqlarını bildiriblər. Müəlliflər həmçinin vəsaitin əl yazmasının çapa hazırlanmasındakı xidmətlərinə görə kafedranın əməkdaşları S.R.Çıraqovaya və S.Y.Ocaqverdiyevaya öz minnətdarlıqlarını bildirirlər.